**BƏXTİYAR VAHABZADƏ – 100**
**BAKHTIYAR VAHABZADE – 100**
**БАХТИЯР ВАГАБЗАДЕ – 100**

UOT 37.

**Hümeyir Hüseyn oğlu Əhmədov,**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*Elmi-pedaqoji kadrların hazırlanması şöbəsinin müdiri,*
*pedaqogika üzrə elmlər doktoru, professor,*
*Qazaxıstan Pedaqoji Elmlər Akademiyasının xarici üzvü,*
*Rusiya Təhsil Akademiyasının xarici üzvü,*
*Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü,*
*RTA-nın Əməkdar elm və təhsil xadimi*
*https://orcid.org/ 0000-0003-0019-4266*
*E-mail: humeyir@gmail.com*
*a.humeyir@arti.edu.az*

**Lalə Akif qızı Məmmədli,**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*aparıcı mütəxəssisi,*
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*elmlər doktoru proqramı üzrə əyani doktorant*
*https://orcid.org/0000-0003-0686-3627*
*E-mail: lale23@mail.ru*
*l.memmedli@arti.edu.az*

**Pərvin Cavanşir qızı Əlizadə,**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*aparıcı mütəxəssisi,*
*Türkiyə Respublikası Van Yüzüncü Yıl Universitetinin qiyabi doktorantı*
*https://orcid.org/0009-0009-5896-2177*
*E-mail: alizadapari.16@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(5).15-19*

# BƏXTİYAR VAHABZADƏNİN PEDAQOJİ FƏALİYYƏTİNDƏ MİLLİ KİMLİK, ANA DİLİ VƏ ONUN TƏDRİSİ PRİNSİPLƏRİ

**Humeyir Huseyn Ahmadov,**
*head of the department of Scientific and pedagogical personnel training of the*
*Institute of Education of the Republic of Azerbaijan*
*doctor of pedagogical sciences, professor,*
*foreign member of the Academy of Pedagogical Sciences of Kazakhstan,*
*foreign member of the Russian Academy of Education,*
*full Member of the Academy of Natural Sciences,*
*Honored scientist and educator*

**Lala Akif Mammadly,**
*leading specialist of the Institute of Education of the Republic of Azerbaijan*
*doctor of philosophy in pedagogy*
*doctoral student in the program of doctor of sciences*

**Parvin Cavanshir Alizadeh,**
*leading specialist of the Republic of Azerbaijan*
*doctoral student in the program of philosophy at Van Yuzuncu Yil University,*
*Republic of Türkiye*

# BAKHTIYAR VAHABZADE'S NATIONAL IDENTITY, NATIVE LANGUAGE AND PRINCIPLES OF ITS TEACHING IN THE PEDAGOGICAL ACTIVITIES

***Гумейир Гусейн оглы Ахмедов,***
*заведующий отделом подготовки научно-педагогических кадров,*
*Института Образования Азербайджанской Республики*
*доктор педагогических наук, профессор,*
*иностранный член Академии Педагогических Наук Казахстана,*
*иностранный член Российской Академии Образования,*
*действительный член Академии Естественных Наук,*
*Заслуженный деятель науки и образования*

***Лала Акиф гызы Мамедли,***
*ведущий специалист*
*Института Образования Азербайджанской Республики*
*доктор философии по педагогике,*
*докторант очной формы обучения по программе доктора наук*

***Парвин Джаваншир гызы Ализаде,***
*ведущий специалист*
*Института Образования Азербайджанской Республики*
*заочный докторант Университета Ван Юзюнджю Йыл Турецкой Республики*

# НАЦИОНАЛЬНАЯ ИДЕНТИЧНОСТЬ, РОДНОЙ ЯЗЫК И ПРИНЦИПЫ ЕГО ПРЕПОДАВАНИЯ В ПЕДАГОГИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ БАХТИЯРА ВАГАБЗАДЕ

**Xülasə.** Məqalədə Xalq şairi Bəxtiyar Vahabzadənin pedaqoji fəaliyyətində ana dilinin təbliği və tədrisi məsələləri geniş şəkildə araşdırılır. Şairin ana dilinə olan yüksək sevgisi onun şeirlərində, elmi və publisistik yazılarında, pedaqoji fikirlərində öz əksini tapır. Əsərlərində dilin milli kimlik, vətəndaşlıq borcu və azadlıq rəmzi kimi təqdim olunması Vahabzadənin dilə münasibətinin dərinliyindən xəbər verir. Bununla yanaşı, pedaqoq-alim kimi onun dil tədrisinə yanaşması, müəllim-şagird münasibətlərində humanist dəyərlərə verdiyi önəm vurğulanır.
***Açar sözlər:*** *Bəxtiyar Vahabzadə, ana dili, dilin tədrisi, pedaqoji fikir, milli varlıq, vətəndaşlıq mövqeyi, dil sevgisi.*

**Abstract.** The article examines in detail the issues of propaganda and teaching of the native language pedagogical activity of the people's poet Bakhtiyar Vahabzade. The poet's great love for his native language is reflected in his poems, scientific and journalistic works, pedagogical ideas. The presentation of language in his works as a symbol of national identity, civic duty and freedom testifies to the depth of Vahabzade's attitude to language. At the same time, his approach to teaching language as a teacher-scientist and the importance he attached to humanistic values in teacher-student relations are emphasized.
***Keywords:*** *Bakhtiyar Vahabzade, native language, language teaching, pedagogical idea, national existence, civic position, love of language.*

**Аннотация**. В статье подробно рассматриваются вопросы пропаганды и преподавания родного языка в педагогической деятельности народного поэта Бахтияра Вагабзаде. Высокая любовь поэта к родному языку отражена в его стихах, научных и публицистических трудах, педагогических идеях. Представление языка в его произведениях как символа национальной идентичности, гражданского долга и свободы свидетельствует о глубине отношения Вагабзаде к языку. При этом подчеркивается его подход к преподаванию языка как учителя-ученого и значение, которое он придавал гуманистическим ценностям в отношениях учитель-ученик.
***Ключевые слова:*** *Бахтияр Вагабзаде, родной язык, преподавание языка, педагогическая идея, национальное бытие, гражданская позиция, любовь к языку.*

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, dramaturq, ədəbiyyatşünas alim və pedaqoq, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü (akademiki), filologiya elmləri doktoru,

professor, Xalq şairi Bəxtiyar Mahmud oğlu Vahabzadə yaradıcılığı ilə milli-mənəvi dəyərlərimizin qorunması və inkişafında əvəzsiz xidmətlər göstərmişdir. Onun pedaqoji fəaliyyəti Azərbaycan dilinin saflığı, təbliği və inkişafı naminə əsl vətəndaşlıq nümunəsidir. Ədəbi, elmi və pedaqoji fəaliyyətində ana dilinə sevgi və ehtiram Bəxtiyar Vahabzadənin əsas mövzularındandır. Sözün qüdrətini hər zaman üstün tutan şair ana dilinin və bu dildə işlənən sözlərin bir insanın sosial-psixoloji sağlamlığında nə qədər önəmli olduğunu bütün yaradıcılığı boyu ifadə etməyə çalışmışdır. "Eşq olsun o söz ustadına ki, sözün rəngini deyil, ətrini üzə çıxarıb cövhərini bizə göstərə bilir", sözləri buna bariz nümunədir [7, s.184].

Bəxtiyar Vahabzadə öz əsərlərində dilin xalqın ruhu, psixologiyası və mənəviyyatının ifadəsi olduğunu dəfələrlə vurğulamışdır. O, ana dilinə biganə münasibəti sərt tənqid etmiş, dilin dövlət səviyyəsində işlənməsi və qorunmasının vacibliyini xüsusi qeyd etmişdir. Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatının nadir şəxsiyyətlərindən biri kimi öz yaradıcılığında ana dilini yalnız ünsiyyət vasitəsi deyil, milli kimliyin, mədəniyyətin və tarixi yaddaşın daşıyıcısı kimi təqdim etmişdir. Onun fikrincə, dil xalqın ruhudur; o, yalnız nitq forması deyil, bir millətin tarix boyu qazandığı mənəvi təcrübənin, estetik dünyagörüşünün, əxlaq və adət-ənənələrinin ifadə vasitəsidir. Vahabzadə bu baxışı ilə dilin sırf texniki deyil, dərin fəlsəfi və sosiomədəni dəyər daşıdığını sübut edir. Şairə görə dilini bilməyən insanlar üçün vətən məfhumu şəxsi yurd, millət ideyası isə yaxın qohum deməkdir. Ana dilini bilməyən fərdlər millətin ruhuna, mənəviyyatına, tarixi şüuruna biganədirlər və o xalqın övladı deyillər [6, s.15].

Şairin məşhur "Ana dili" və "Latın dili" şeirləri onun bu mövzuya olan həssas və konseptual yanaşmasının bariz nümunələridir. "Ana dili" şeirində dilin insan həyatında oynadığı rolu ilk layladan tutmuş milli özünüdərketməyə qədər poetik bir kompozisiya ilə təqdim edir. Bu şeirdə dilə yalnız fərdi münasibət deyil, kollektiv – yəni xalqın yaddaşı, hissiyyatı və birliyi prizmasından yanaşılır. Misralarda "Dil – bizim ruhumuz, eşqimiz, canımızdır..." kimi ifadələrlə Vahabzadə dilin yalnız ünsiyyət vasitəsi deyil, eyni zamanda mənəvi-emosional bağların əsasını təşkil etdiyini bildirir [3, s.11]. Bu, eyni zamanda onun pedaqoji mövqeyidir – dilin uşaqlıqdan düzgün və sevgi ilə öyrədilməsi insanın psixoloji və mədəni inkişafında əvəzolunmaz rol oynayır.

Digər tərəfdən, "Latın dili" şeiri çoxqatlı məna strukturu ilə seçilir. Bu əsərdə şair bir tərəfdən artıq danışıq dili kimi sıradan çıxmış latın dilinin elmi və mədəni funksiyalarla yaşamasını təhlil edir, digər tərəfdən isə yaşadığı dövrdə doğma Azərbaycan dilinə göstərilən laqeyd münasibəti tənqid edir. Əsas ideya budur: bir dil yalnız "ölü" sayıldığı üçün yox, onun daşıyıcıları susduğu üçün yox olur. Əgər bir dil yalnız rəsmi sənədlərdə yox, gündəlik həyatda, ailədə, məktəbdə, elm və mədəniyyətdə geniş şəkildə istifadə olunmursa, onun gələcəyi təhlükə altındadır. Vahabzadə bu məqamda Sovet dövründə ana dilinin sıxışdırılmasını, onun tədrisdən və rəsmi idarəçilikdən uzaqlaşdırılmasını tənqid edir və "öz ana dilində azadlıq və xoşbəxtlik sözlərini deməyə ixtiyarı olmayan insanın azadlığı yoxdur" – qənaətinə gəlir [4, s.163, 164].

Bu poetik nümunələr, eyni zamanda şairin vətəndaş mövqeyini də ortaya qoyur. Vahabzadə üçün dil sevgisi yalnız nostalji və emosional bir yanaşma deyil, milli azadlıq və şəxsiyyət bütövlüyü məsələsidir. Onun fikrincə, bir millət öz dilində düşünmədikcə, hiss etmədikcə və danışmadıqca, o, başqa millətlərin mədəni təsiri altında öz kimliyini itirmək təhlükəsi ilə üz-üzə qalır.

Ədəbiyyat və pedaqogikanı birləşdirən bu baxışlar onun tədrisi metodikasında da yer almışdır. O, şagirdin ana dili ilə tanışlığının yalnız texniki qrammatika biliklərinə deyil, dilin ruhuna, bədii-estetik dəyərinə əsaslanmalı olduğunu vurğulayırdı. Beləliklə, Bəxtiyar Vahabzadənin ana dili ilə bağlı fikirləri həm poeziya, həm də təhsil kontekstində aktual və strateji önəm daşıyır.

B. Vahabzadənin ana dilinə, bu dildə tədrisə verdiyi önəm, hələ XX əsrin əvvəllərində maarifçi ziyalılarımızın da əsas ideoloji xətlərindən biri idi. "Molla Nəsrəddin" jurnalı və digər publisistik nəşrlər, müxtəlif ədib və şairlərin pedaqoji düşüncələri təlimin ana dilində aparılması, bu dildə dərslik və dərs vəsaitləri hazırlamaq, proqram tərtib etmək kimi siyasi-strateji problemlərə məhz bu dövrdən işıq tutmuşdur [1, s.72].

B. Vahabzadə yalnız şair və ictimai xadim deyil, eyni zamanda yüksək səviyyəli pedaqoq kimi tanınırdı. Bəxtiyar Vahabzadə Azərbaycan elmi və ədəbiyyatı üçün həm böyük söz ustası, həm də parlaq pedaqoq kimi dəyərli simalardan biri olmuşdur. Onun pedaqoji fəaliyyəti yalnız dərs demək və ya universitet auditoriyalarında mühazirə oxumaqla məhdudlaşmırdı; əksinə, bu fəaliyyət onun milli ideologiya və ana dilinə bağlılıq fəlsəfəsinin təbii davamı idi. O, müəllimlik missiyasını millətə xidmət kimi görür, təlim-tərbiyəni yalnız akademik biliklərin ötürülməsi yox, milli mənliyin formalaşdırılması prosesi kimi qəbul edirdi. Bakı Dövlət Universitetində professor kimi çalışdığı illərdə B. Vahabzadə tələbələrin mənəvi və intellektual inkişafına xüsusi diqqət yetirirdi. Onun dərsləri yalnız quru nəzəri biliklər vermir, tələbəni düşünməyə, hiss etməyə və sorğulamağa təşviq edirdi. O, təhsildə "əyanilik prinsipi"ni vacib pedaqoji metod kimi qəbul edirdi. Vahabzadəyə görə, tədris yalnız informasiya ötürmək deyil, həyatın canlı faktları üzərindən düşünmək, nəticə çıxarmaq və dəyərləndirmə qabiliyyəti formalaşdırmaqdır. Bu mənada o, mücərrəd tədris üsullarından uzaq olaraq real həyatla bağlı, konkret misallar və ədəbi nümunələr üzərində qurulmuş dərslərə üstünlük verirdi. B. Vahabzadə pedaqoji yaradıcılığı ilə ədəbi fəaliyyətini nəinki eyni zamanda daşıya bilir, bu iki sahənin vəhdətindən milli-mənəvi dəyərlərimizin inkişafında geniş istifadə etməyə çalışırdı.

Şairin özü də dediyi kimi:

*Yarıya bölünür günüm, saatım!*
*Vaxt mənim sərvətim, mənim varımdır!*
*Müəllimlik -mənim günüm, həyatım,*
*Şairlik - ən uca duyğularımdır.* [5, s.365]

B. Vahabzadə ədəbiyyatın tədrisində bədii təsvir vasitələrindən – təşbeh, mübaliğə, metafora və digər sənətkarlıq üsullarından istifadəyə xüsusi önəm verirdi. Onun fikrincə, bu üsullar şagird və tələbənin dərslə emosional bağ qurmasına, mövzunu yalnız başla deyil, həm də qəlblə dərk etməsinə şərait yaradır. Şairə görə gənclərlə bir yerdə olmaq, onların istək və arzularını bilmək və bu arzularla yaşamaq, gənclik duyğuları ilə nəfəs almaq onu həyata bağlayır, hər gün ilhamını təzələyirdi [2, s.11]. Belə bir yanaşma təkcə təlimin effektivliyini artırmır, həm də milli ruhun gənc nəslin düşüncə sisteminə hopmasını təmin edirdi.

Bəxtiyar Vahabzadənin pedaqoji metodologiyasında psixoloji yanaşma ön planda idi. O, uşağın və gəncin dünyagörüşünü, hiss və qavrayış imkanlarını nəzərə alaraq, tədris prosesini şagirdin mənəvi dünyasına uyğunlaşdırmağı vacib sayırdı. O deyirdi ki, uşaq üçün yazmaq və tədris etmək çətindir, çünki bunun üçün uşağın aləmini dərindən anlamaq, onun dünyasını hiss etmək və ona uyğun ünsiyyət dili tapmaq lazımdır. Bu yanaşma, müasir pedaqogikada da tətbiq edilən "şagirdmərkəzli" tədris modelinə uyğun gəlir.

Vahabzadənin tədrisə yanaşmasında mühüm yer tutan bir digər amil də milli dəyərlərə söykənmək idi. O, müəllimi cəmiyyətin mənəvi sütunu kimi görür və hesab edirdi ki, müəllim öz şəxsi nümunəsi ilə gənclərdə milli şüurun və vətənpərvərliyin formalaşmasına xidmət etməlidir. Bu kontekstdə müəllim yalnız fənn biliklərini çatdıran deyil, həm də gənc insanın dünyabaxışını formalaşdıran şəxsiyyət olmalıdır. Elə bu səbəbdəndir ki, Bəxtiyar Vahabzadə pedaqoji fəaliyyəti dövründə həm müəllim, həm vətəndaş, həm də sənətkar məsuliyyətini bir arada daşımağı bacarmışdır. Nəticə etibarilə, Bəxtiyar Vahabzadənin pedaqoji fəaliyyəti müasir tədris prosesində aktual olaraq qalan dəyərlərə əsaslanır: vətən sevgisi, ana dilinə hörmət, şagirdin şəxsiyyətinə dəyər vermək və tədrisdə humanist yanaşma. Onun metodları bu gün də Azərbaycan təhsilində tətbiq edilə biləcək nümunəvi yanaşmalardır. Ədəbiyyat dərslərinin şagirdin ruhunda milli dəyərlərə bağlılıq yaratmalı olduğunu bildirən B. Vahabzadə, müəllimin yalnız bilikli deyil, eyni zamanda yüksək mənəviyyat sahibi olmasının vacibliyini vurğulayırdı. O, müəllimi "ilk dost, mənəvi ata" kimi dəyərləndirərək bu peşənin cəmiyyətin təməllərindən biri olduğunu göstərmişdir.

Bəxtiyar Vahabzadə ömrü boyu ana dilinin təbliği və tədrisi sahəsində misilsiz xidmətlər göstərmişdir. Onun yaradıcılığı və pedaqoji baxışları bu gün də aktualdır və Azərbaycan dilinin qorunması istiqamətində dəyərli örnəkdir. O, ana dilini xalqın milli varlığının təməli kimi qiymətləndirmiş və bu dəyərlərin gələcək nəsillərə ötürülməsini özünün mənəvi borcu saymışdır.

**Problemin aktuallığı.** Müasir dövrdə qloballaşma və informasiya cəmiyyətinin genişlənməsi nəticəsində ana dilinin qorunması və düzgün tədrisi məsələsi daha da aktuallaşmışdır. Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, yeni nəsillərə sevdirilməsi və öyrədilməsi milli kimliyin əsas dayaqlarındandır. Xalq şairi Bəxtiyar Vahabzadənin ana dili ilə bağlı fikirləri və mübariz mövqeyi bu kontekstdə dəyərləndirilməli və bu günümüz üçün aktual nümunə kimi təqdim edilməlidir. Onun dilə olan yanaşması, xüsusilə, gənclərin milli tərbiyəsində və mənəvi formalaşmasında dilin rolunu önə çəkməsi, bu problemin hələ də öz əhəmiyyətini itirmədiyini sübut edir.

**Problemin yeniliyi.** Məqalədə ana dili məsələsi yalnız ədəbi baxımdan deyil, eyni zamanda pedaqoji və ictimai-siyasi kontekstdə araşdırılır. Bu yanaşma Vahabzadənin ana dili ilə bağlı fikirlərini yalnız poetik ifadə kimi deyil, pedaqoji konsepsiya və milli ideologiya çərçivəsində qiymətləndirməyə imkan verir. Bu, məsələyə çoxşaxəli, sistemli yanaşmanı təmin edir və şairin pedaqoji baxışlarının indiki təhsil sistemi üçün necə aktual və faydalı ola biləcəyini göstərir. Xüsusilə dil tədrisində istifadə edilə biləcək prinsiplərin Vahabzadənin yaradıcılığından çıxarılması elmi və metodik yenilikdir.

**Problemin praktik əhəmiyyəti.** Bəxtiyar Vahabzadənin ana dili ilə bağlı fikirləri və pedaqoji yanaşması Azərbaycan məktəblərində və ali təhsil müəssisələrində dilin tədrisi prosesində tətbiq oluna biləcək real metodiki baza yaradır. Onun dilə emosional-mənəvi yanaşması təhsil prosesində dil sevgisinin formalaşdırılması üçün əsaslı təməl rolunu oynayır. Məqalədəki təhlillər və nəticələr dil müəllimləri, pedaqoqlar və təhsil mütəxəssisləri üçün praktikiyönlü tövsiyələr kimi dəyərləndirilə bilər. Bu baxımdan mövzu, yalnız nəzəri deyil, həm də praktik baxımdan əhəmiyyətlidir.

## Ədəbiyyat:

1. Əhmədov, H.M. Mollanəsrəddinçilərin maarifçilik ideyalarına həsr olunmuş layiqli töhfə. “Azərbaycan məktəbi”, -2018, -s.72-76
2. Kərimova, S. Bəxtiyar Vahabzadə yaradıcılığında tərbiyə məsələləri / Ş,. Kərimova. -Bakı: Nurlan, -2009. -154 s.
3. Vahabzadə, B. Ana dili [Mətn]: Azərbaycan. -2025.- 8 aprel (№ 67). - s.11.
4. Vahabzadə, B. Gəlin açıq danışaq (Məqalələr toplusu) / B. Vahabzadə. -Bakı: Azərnəşr, -1989. -220 s.
5. Vahabzadə, B. Seçilmiş əsərləri, 2 cilddə, II c. / B. Vahabzadə. -Bakı: Yazıçı, 1984. -458 s.
6. Vahabzadə, B. İstiqlal / B. M. Vahabzadə / B. Vahabzadə. - Bakı: Gənclik, -1999. - 495 s.
7. Xəlilov, B. Bəxtiyar Vahabzadənin dilçilik görüşləri / V. Xəlilov. -Bakı: Bakı Çap Evi, -2014. -244 s.

**Redaksiyaya daxil olub:** 09.09.2025.